**Azərbaycan.** - 2023.- 27 iyul. - № 156. - S. 9.

# XATİRƏLƏRDƏ ƏBƏDİ YAŞAYAN DAHİ ŞƏXSİYYƏT

## Heydər Əliyev - müstəqil Azərbaycanın qurucusu, rəhbəri və lideri

**Novruz Məmmədov**

**Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyev haqqında danışmaq çox çətindir. Hətta xatirələrdə belə bu böyük siyasət adamını, dövlət xadimini, lideri və yüksək mənəvi keyfiyyətlərə malik şəxsiyyəti tam təqdim etmək mümkün deyildir. Çünki Heydər Əliyev çox dərin mənəviyyata, yüksək iradəyə və əxlaqa malik şəxsiyyət olmaqla yanaşı, həm də qeyri-adi strateji zəka sahibi idi. Buna görə də Ulu Öndərin ifadə etdiyi fikirləri hətta illər sonra tam anlamaq asan deyildir. Lakin Heydər Əliyev kimi dahi insanla uzun illər bir yerdə işləməyin özünün də qiymətli, əziz və faydalı xatirələri vardır. Mən onların bir qismini bölüşmək istədim.**

### Tələbkar, qayğıkeş və yorulmaz lider: Böyük məktəb!

Dahi şəxsiyyətlərlə birgə işləmək hər insanın qismətinə yazılmır. Mənim uzun illər Azərbaycan Respublikasında yüksək vəzifələrdə çalışmağım bu baxımdan həyatımın ən məhsuldar və mənalarla dolu mərhələsidir. Həm də ona görə ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında illərlə çalışmışam. Mənim üçün çox böyük əhəmiyyəti olan üç məsələ haqqında indi də çox düşünürəm. Onları üç qrupa bölərdim: birincisi, Heydər Əliyev dahi şəxsiyyət kimi idarəetmə ilə öyrətməyi bir-biri ilə heyrətamiz dərəcədə uyğunlaşdıra bilən böyük siyasətçi idi. İkincisi, Heydər Əliyev sözün yüksək mənasında mənəvi-əxlaqi dəyərlərə sahib, milli mədəniyyəti tam gözləyən və uzaqgörən bir Prezident idi. Üçüncüsü, Ulu Öndər birgə işlədiyi insanları böyük qayğı ilə idarə edən, tələbkar, nizam-intizamlı və millətinə sıx bağlı olan Böyük Lider idi!

Heydər Əliyevin hər kəlməsində hikmət görürdüm. İndi Ulu Öndərin ifadə etdiyi fikirləri tez-tez xatırlayıram, demək olar ki, hər gün onları təkrarlayıram. Xüsusilə dövlətin müstəqilliyi və millətin inkişafı ilə əlaqədar söylədikləri yaddaşımda möhkəm yer almışdır. Ulu Öndər öyrədirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Bu fikirlərdə cəmiyyətin mədəniyyəti, ölkənin iqtisadiyyatı, dövlətin müstəqilliyi və dünya miqyasında nüfuzunu daim artırmaq zəruriliyi dahiyanə ifadə edilmişdir. Hər dəfə dövlətçilik fəlsəfəsi haqqında düşünərkən mən bu fikirləri təkrar-təkrar ağlımdan keçirirəm. Məsələ həm də onunla bağlıdır ki, Ulu Öndərin rəhbərliyi altında işlədiyimiz müddətdə siyasətin incəliklərini ondan öyrənməyə çalışırdım. Bunun üçün Ümummilli Lideri həmişə çox diqqətlə dinləyir, hər bir cümləsindəki hikməti anlamağa çalışırdım. Şübhə etmirəm ki, Heydər Əliyevdən öyrənə bildiklərim bütövlükdə həyatımın hər bir sahəsində mənə əvəzedilməz dəstək olmuşdur və indi də onları rəhbər tutaraq davranmağa çalışıram. Onun qeyri-adi strateji düşüncə sahibi olduğunu nəinki görürdüm, həm də bir yerdə işləyəndə təsirini və qüdrətini öz üzərimdə hiss edirdim. Heydər Əliyev çox güclü inandırma və əsaslandırma qabiliyyətinə malik şəxsiyyət idi.

Bununla yanaşı, Ulu Öndərin böyük səbri və dərin düşünülmüş hesablamaları vardı. Buna görə də Heydər Əliyev bir dəfə də olsun, vaxtından əvvəl addım atmaz, heç zaman tələsməzdi. Həmişə hər bir incə məqamı belə təhlil edib qərar verər, onunla işləyən hər bir kəsi də bu ruhda formalaşdırırdı. Şəxsən mənim üçün bu özəllik çox qiymətli idi və çalışırdım ki, böyük şəxsiyyətin həmin yüksək mənəvi-əxlaqi, siyasi, iradi, diplomatik keyfiyyətlərindən özüm üçün faydalı nəsə götürüm.

Heydər Əliyev çox yenilikçi idi. Yuxarıda vurğuladığım keyfiyyətlər Ulu Öndərə həmişə yenilik etməyə imkan verərdi. Bu səbəbdən Heydər Əliyevin hər dəfə yeni ideya ilə çıxış etməsi məni təəccübləndirmirdi, əksinə, bunu tam normal hal kimi qəbul edirdim. Çalışırdım ki, Ulu Öndərin ifadə etdiyi fikirləri dəqiqliklə özüm üçün qeyd edim. Bu vərdiş də mənə çox şey öyrətdi. Məsələn, Heydər Əliyevin həmişə ölkənin gələcəyi haqqında düşünməsi əsl məktəb idi.

Dünya tarixində nadir dövlət başçısı-lider olmuşdur ki, ölkənin gələcəyini həmişə düşünsün və praktiki fəaliyyətində bu amal uğrunda var gücü ilə çalışsın. Heydər Əliyevin fəaliyyəti bu aspektdə bütün dünya üçün bir örnəkdir. Görürdüm ki, heç bir çətinlik, maneə, tələ və ya ittihamlar onun möhkəm iradəsini sındıra bilmirdi. Bu baxımdan Heydər Əliyevlə birgə çalışmaq ciddi sınaq məktəbi, idarəetmə və Vətəni sevməyi öyrənmək fürsəti idi. Bu yerdə mən 2010-cu ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə keçirilən tədbirdə dediyim fikirləri bir daha xatırlatmaq istərdim: "Mən Heydər Əliyevi insan qalaktikasının ən parlaq ulduzu hesab edirəm. Xoşbəxtəm ki, onunla bir yerdə işləmişəm. Həyatda başqa heç nəyə nail olmasaydım da, bu, mənim üçün kifayət edərdi. Dünyanın 60-dan çox ölkəsinin rəhbərlərinin bir neçə nəsli ilə tanış olmuşam, müxtəlif nümayəndə heyətlərinin tərkibində onlarla görüşmüşəm, onlarla aparılan danışıqlarda iştirak etmişəm. Bu görüşlər mənim üçün bir nəticəyə gəlmək, fikir söyləmək, qərar qəbul etmək üçün çox böyük əhəmiyyətə malik olub. Səmimiyyətlə deyirəm: mən nə XX əsrdə, nə də XXI əsrin əvvəllərində o dövlət başçıları arasında Heydər Əliyev kimi şəxsiyyət görə bilməmişəm. Çünki dəfələrlə olan görüşlər, edilən söhbətlər, aparılan danışıqlar zamanı mübaliğəsiz, şişirtmədən deyirəm ki, onların Heydər Əliyev simasının, dühasının, zəkasının kölgəsində qaldıqlarını görmüşəm. Bunu zaman da sübut edir. Heydər Əliyev sağlığında tarixə çevrilmiş insan idi. Heydər Əliyev bütün situasiyalarda xalqa nə cür xidmət etməyin yolunu göstərdi. O, hər addımında böyük bir vətəndaş olduğunu, Vətəninə, millətinə nə qədər ürəkdən bağlı olduğunu nümayiş etdirirdi. Bir dəfə Fransaya səfərim zamanı orada gənc fransız haradan olduğumu soruşdu. Cavabında SSRİ-dən olduğumu dedim. O da fransızca bir neçə dəfə Lev Yaşin və Əliyev dedi. Düzü, əvvəlcə bu sözlərin mənasını anlamadım. Yanımdakı tanışımdan onun nə dediyini soruşduqda dedi ki, əfsanəvi futbolçu Lev Yaşin və dünya miqyaslı dövlət adamı Heydər Əliyev haqqında danışır. Görün ötən əsrin 80-ci illərində Avropanın mərkəzi şəhərlərinin birində SSRİ-ni kimin vasitəsilə tanıyırdılar".

Ulu Öndərlə işlədiyim müddətdə ona da tam əmin oldum ki, Heydər Əliyevin xalqa, torpağa bağlılığı çox güclüdür. Bu baxımdan Ümummilli Liderin gördüyü işlər və ümumiyyətlə, qoyduğu iz tariximizdə yeganə haldır, təkrarolunmazdır və əvəzedilməzdir. Bu mənada Heydər Əliyev Azərbaycan xalqının tarixi yaddaşıdır, o daim qalacaqdır, əbədidir. Çünki hər bir xalq üçün onun müstəqil dövlətçiliyi ən böyük sərvətidir.

Heydər Əliyev çox zəngin siyasi-mənəvi sərvət qoyub. Ulu Öndərin bizə miras qoyduğu dövlətimizi qoruyub saxlamalı və daha da inkişaf etdirməliyik. Ulu Öndər bizə dövlətçiliyin sirlərini açırdı. İlk gündən seçdiyimiz yola daim sədaqətli olmuşam və bu yolu seçdiyimə görə həmişə fəxr etmişəm.

Ancaq bir məqamı da etiraf etmək lazımdır. Məsələ belədir ki, Heydər Əliyev kimi bir siyasi və dövlət xadimi haqqında danışmaq onunla bir yerdə işləmiş insanlar üçün heç də asan deyildir, hətta çox çətindir. Çünki Ulu Öndər tarixi şəxsiyyət və siyasətçi kimi elə bir fenomendir ki, haqqında ifadə edilən fikirlərin onu tam xarakterizə edə bilməsi çətin işdir. Lakin Heydər Əliyevlə işləmək həm də böyük şərəf idi. Ümummilli Lider yorulmaz, tələbkar olduğu qədər də qayğıkeş və mehriban insan idi.

**Qeyri-adi strateji zəka: Zamanı qabaqlayan Prezident-Lider!**

Bir fikri də bölüşmək istərdim. Əminəm ki, insanların həyat yoluna işıq saçan və yüksək mənəviyyat sahibi olan böyük şəxsiyyətlər həmişə adi insanların yaşadıqları həyat tərzinin fövqündə dayanırlar. Ulu Öndərin hərəkətləri sadə olsa da, onların arxasında həmişə böyük məna dururdu. Mən bunları xüsusilə xarici səfərlərdə daha çox hiss edirdim. Heydər Əliyev heyrətedici dərəcədə diplomatik davranışları və nitqi ilə sadəliklə dərinliyi vəhdətdə təqdim edə bilirdi. Açığı, bununla böyük qürur hissi keçirirdim. Həm də ona görə ki, belə bir liderin yanında insan özünü çox nikbin və yenilməz hiss edir.

Heydər Əliyev çox dərin və böyük İdeya insanı idi. Bunu duymadan atdığı addımların, yeritdiyi siyasətin, istifadə etdiyi diplomatik üsulların əsl mənasını anlamaq asan deyildi. Yalnız o halda Heydər Əliyevin uzaqgörənliyini, necə yüksək strateji təfəkkürə sahib olduğunu dərk etmək mümkün idi. Bu kontekstdə bir xatirəmi də yada salmaq istərdim. 2014-cü ildə mətbuata verdiyim müsahibədə demişdim: "Etiraf edim ki, bəzən Heydər Əliyevin cümləsində və ya praktiki addımında hansı məqsədin qarşıya qoyulduğunu vaxtında dərk etmək çətin olurdu. Ümummilli Lider bütün insanlardan bir neçə addım irəlini düşünür və ona uyğun olaraq hərəkət edirdi".

Əlbəttə, bir tərəfdən, sevinir və qürur duyurdum ki, xalqımızın taleyi möhkəm əllərdədir, digər tərəfdən isə, siyasətin incəliklərini Heydər Əliyevdən öyrənməyə çalışırdım. Bununla bağlı yaddaşımda indi də canlı olan nümunələr vardır. Məsələn, 2001-ci il yanvarın 25-də Heydər Əliyevin Strasburqdakı tarixi çıxışı unudulmazdır. Həmin tədbir Azərbaycanın Avropa Şurasına üzvlüyə qəbul edilməsi ilə bağlı keçirilirdi. Heydər Əliyevin orada söylədiyi nitq indiyə qədər qulaqlarımda səslənir. Bu nitqində Ümummilli Lider ölkənin xarici siyasətinin üç strateji aspektini böyük ustalıqla ifadə etdi. Bunlar aşağıdakılardan ibarət idi: birincisi, dövlətin xarici siyasətinin təməlində mədəniyyəttutumlu suverenliyin təmin edilməsi durur; ikincisi, qarşıda duran başlıca vəzifələr Azərbaycanın Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə əsaslanan cəmiyyət quruculuğu müstəvisində müəyyən edilir və nəhayət, üçüncüsü, bu vəzifələrin həyata keçirilməsi mexanizmi Azərbaycanın geomədəni bir məkan kimi Şərqlə Qərbin sintezini təmin etməsi, iki qitə, iki sivilizasiya arasında körpü rolunu oynaması əsasında konkret məzmun alır.

Bu fikirlər həm siyasi-strateji, həm də siyasi-nəzəri aspektdə dahiyanədir. Onlar fəlsəfi səviyyədə ümumiləşdirmələrdir ki, müasir filosoflar, siyasətşünaslar üçün də çox maraqlıdır. Ulu Öndərin bu və buna bənzər fikirləri və ideyaları araşdırılmalı, ümumiləşdirilməli və dərsliklərə salınmalıdır. Onlar bizim gənclər üçün çox faydalı olardı.

Qeyd etdiyim aspektdə başqa bir misal kimi Ulu Öndərin Çin səfərini göstərə bilərəm. Çin ənənəvi olaraq müdrikliyi və incə siyasəti ilə tanınır. Dəfələrlə Heydər Əliyevin çinli siyasi liderlər tərəfindən böyük hörmətlə qarşılandığının, Azərbaycanın dövlət başçısının müdrikliyinin qəbul və təqdir edildiyinin şahidi olmuşam. Azərbaycan rəhbərini onlar bütövlükdə Şərqin böyük siyasi xadimi kimi qiymətləndirirdilər. Çünki Heydər Əliyev Şərq mədəniyyəti, ənənəsi və siyasətinin incəliklərini dərindən bilirdi.

İndi bizim hamımız haqlı olaraq 44 günlük Vətən müharibəsi ilə qürur duyuruq. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə düşməni darmadağın edib ərazi bütövlüyümüzü bərpa etmişik. Bu böyük uğurun əldə edilməsində Ulu Öndərin böyük əməyinin olduğunu da heç zaman unutmamalıyıq. Bunu Prezident İlham Əliyev də həmişə haqlı olaraq vurğulayır.

Heydər Əliyev qısa müddətdə xarici siyasətin prioritetlərini müəyyənləşdirdi. Həmin bağlılıqda da artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məsələsinin xarici siyasətdəki yerini dəqiqləşdirdi. Mən o illərdə Ulu Öndərin hansı yüksək entuziazm, həvəs və zəhmətlə çalışdığının canlı şahidiyəm. Heydər Əliyev yorulmaq bilmirdi, qarşısına qoyduğu məqsədə çatmaq üçün var gücü ilə çalışırdı. Ümummilli Lider həmişə bizləri də ruhlandırırdı, qələbənin mütləq Azərbaycanın olacağına inamını əminliklə ifadə edirdi. Heydər Əliyev komandasının üzvlərini elə motivasiya edirdi ki, hər bir insan bütün gücünü işə yönəldirdi. Bunların nəticəsində Heydər Əliyev həm ölkə daxilində, həm ordu

quruculuğunda, həm də beynəlxalq miqyasda ciddi uğurlar əldə etdi. Gözümüzün qarşısında cəmiyyət daha da toparlanır, insanlar Vətən uğrunda həmrəy olur və dünya dövlətləri Azərbaycanın haqq işini dəstəkləməyə başlayırdılar.

Onu da deyim ki, xarici siyasət kursunun digər prioritetləri istiqamətində də böyük uğurlar əldə edilirdi. Məsələn, Cənubi Qafqaz ölkələri arasında yalnız Azərbaycanın liderliyi və müstəqil siyasət yürütməsi dünya tərəfindən etiraf olunurdu. Ölkə regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilirdi. Azərbaycan Cənubi Qafqazda perspektivli iqtisadi əməkdaşlığın, multikulturalizmin, mədəniyyətlər və dinlərarası dialoqun sivil modelini təklif edən dövlətə çevrilirdi. Bu gün Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi bütün bunlara görə böyük şansdır.

Heydər Əliyevin daha bir yüksək mənəvi keyfiyyəti öz xalqına, Vətəninə və soydaşlarına sarsılmaz inamla bağlı olmasından ibarətdir. Ulu Öndər Azərbaycana və azərbaycanlılara inanırdı. Harada yaşamasından asılı olmayaraq azərbaycanlıları düşünürdü. Həmişə bizə deyərdi ki, Azərbaycan çox güclü və sayılan dövlətlərdən olacaq və bunu sizlər görəcəksiniz. Azərbaycanın ən çətin hallarda belə yolundan dönməyəcəyini söyləyirdi.

Heydər Əliyevin bu qətiyyətini tam qəbul edirdim. Çünki anlayırdım ki, Ulu Öndər siyasi varisini yetişdirir və yetişdirdiyi yeni Lider əminliklə Heydər Əliyevin yolunu davam etdirəcəkdir. Bu baxımdan İkinci Qarabağ müharibəsində İlham Əliyevin dövlət başçısı, Lider və Ali Baş Komandan kimi bütün istedadının aydın olması tamamilə qanunauyğundur. İlham Əliyevin bütün sahələrdə, o cümlədən xarici siyasətdə nümayiş etdirdiyi böyük məharət və səmərəlilik gözlənilən idi. Heydər Əliyev özünə tam layiqli varis qoyub getmişdir. Heydər Əliyev o qədər qüdrətli, o qədər böyük tarixi şəxsiyyət idi ki, o, Azərbaycanı bütün müsəlman dövlətləri üçün nümunə kimi ortaya qoydu. Bu, nəinki islam ölkələri, bütün dünya üçün nümunədir. Baxmayaraq ki, bəziləri paxıllıqdan bunu etiraf etmək istəmirlər. Bu məsələdə dünyada Azərbaycan xalqından xoşbəxt başqa xalq tanımıram. Biz millət olaraq çox şanslıyıq.

Şanslı olmağımızın da müxtəlif tərəfləri vardır. Heydər Əliyev bu xalqa müstəqil olmaq, mənəviyyat və əxlaqdan gələn ənənələri yaşatmaq, mübariz olmaq, dövlətçi olmaq, suverenlik və ərazi bütövlüyünü bərpa etmək şansını verdi. Mən burada 2015-ci ildə verdiyim müsahibələrin birində ifadə etdiyim fikri bir daha təkrar etmək istəyirəm. Onda demişdim ki, "Bugünkü Azərbaycan Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi mirasdır və… bu gün Heydər Əliyevin əziz xatirəsi yaşayır… 20-ci əsrin sonları, 21-ci əsrin əvvəllərinin ən böyük dövlət və siyasi xadimlərindən biri Heydər Əliyev idi. Tale belə gətirdi ki, o, Azərbaycanın rəhbəri oldu. Ulu Öndər öz xalqını çox sevirdi, Azərbaycana bütün varlığı ilə bağlı idi və çox inanırdı. Bizim hamımız bəlkə də onun inamına, etimadına layiq deyilik, amma o bunu edirdi. Bunun da əvəzində biz ona inanırdıq. Bu gün də biz inanırıq ki, Heydər Əliyevin qoyduğu yol ən düzgün yoldur".

Heydər Əliyevlə bağlı xatirələrim, əlbəttə, bu yazıda vurğuladıqlarımla məhdudlaşmır. Ulu Öndər dövlət başçısı, siyasi lider, yüksək mənəvi dəyərlərə malik şəxsiyyət kimi çox koloritli, xarizmatik rəhbər idi. Onunla işlədiyim hər saniyə belə mənim üçün bir məktəb idi. Ancaq yenə də bir məqamı vurğulamaq yerinə düşərdi: Heydər Əliyev qeyri-adi strateji zəkaya malik Prezident-Lider idi! Onu da deyim ki, mən "qeyri-adi təfəkkür sahibi" dedikdə, onunla uzun müddət bir yerdə çalışmaq qisməti olmuş məmur kimi Ulu Öndərin yalnız gələcəyi öncədən görə bilmək kimi yüksək qabiliyyətini nəzərdə tutmuram! Heydər Əliyev işlədiyi hər anda belə yüksək strateji təfəkkür sahibi olduğunu sübut edirdi. Ümummilli Lider qarşıya hansı çətinlik çıxırsa-çıxsın, hansı mürəkkəb vəziyyət yaranırsa-yaransın, heç zaman təmkinini, uzağa, gələcəyə baxış qüdrətini itirmirdi. Son dərəcə böyük səbir və dəqiq məntiqlə baş verənləri bizə izah edir və eyni zamanda ən səmərəli çıxış yollarını müəyyənləşdirərək ifadə edirdi. Biz görürdük ki, Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsini hansı dəqiqliklə müstəqil dövlət quruculuğu kursunda tətbiq edir. Təcrübə göstərdi ki, Ulu Öndər dövlətçilik və müstəqilliklə bağlı bütün məsələlərdə tam haqlı olmuşdur!

Şübhə etmirəm ki, Prezident İlham Əliyevin qazandığı bütün uğurlarda Heydər Əliyevin uğurlu lider yetişdirən yüksəksəviyyəli siyasi məktəbinin böyük payı vardır. Bunu cənab Prezident də həmişə vurğulayır.

Heydər Əliyevlə uzun müddət bir yerdə işləmiş insanlar kimi biz cənab Prezident İlham Əliyevlə böyük qürur duyuruq! Etiraf edək, çox mürəkkəb geosiyasi proseslərin baş verdiyi, hər an qarşıya risklərin çıxdığı bir tarixi dönəmdə Azərbaycan Respublikasının nüfuzunu zirvələrə yüksəltmək, cəmi 44 günə ölkənin ərazi bütövlüyünü təmin etmək, bütün dünyanı heyrətə salan enerji-nəqliyyat layihələrini reallaşdırmaq və hətta Avropanın milli təhlükəsizliyinə dəstək olmaq hər Liderin işi deyil! Bunu Avrasiyada bu qədər geniş miqyasda İlham Əliyevdən başqa hansı Lider bacarır?

Bu bağlılıqda illər öncə (2015-ci il) dediyim bir fikri xatırlatmaq istərdim: "Geosiyasət klassikləri deyir ki, Balkanlardan sonra Avrasiya məkanında ikinci ən həssas nöqtə, bütün proseslərə rəvac verə biləcək məkan Cənubi Qafqazdır. Belə bir yerdə bu cür sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı təmin etmək və qazanmaq çox böyük şeydir. Qarabağ da bizimdir və bizim də olacaq. Lakin bu gün proseslərin ən optimal yolu budur… Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunun digər prioritetləri istiqamətində də böyük uğurlar əldə edilmişdir. Bunun ən gözəl sübutu bu gün Cənubi Qafqaz ölkələri arasında yalnız Azərbaycanın liderliyi və müstəqil siyasət yürütməsinin dünya tərəfindən etiraf olunmasıdır. Ölkəmiz regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir. Azərbaycan perspektivli, iqtisadi əməkdaşlığın, multikulturalizmin, mədəniyyətlər və dinlərarası dialoqun sivil modelini təklif edən Cənubi Qafqaz dövlətidir!"

Bu fikirlərə 2023-cü ilin prizmasından baxdıqda, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu dövlət başçısı-lider olduğunu daha aydın görürük. Və bu mənzərə məni o qədər sevindirir ki, hər gün "Allah Ulu Öndərə qəni-qəni rəhmət etsin, Azərbaycanın dünyaya Günəş kimi doğmasının əsasını qoydu", deyə düşünürəm! Şübhə etmirəm ki, cənab Prezident İlham Əliyev bundan sonra da hamımızı qürurlandıran yeni-yeni addımlar atacaq! Çünki İlham Əliyev Heydər Əliyevin siyasi varisidir!